# Söz mülkünün əbədi məşəli



**Həyatını böyük ideallar uğrunda mübarizəyə həsr edən, xalqın maariflənməsi üçün ürəyini məşələ çevirən, imperiya qullarının bütün təzyiqlərinə, təhdidlərinə, təqiblərinə baxmayaraq, doğma xalqını intibaha səsləyən, cəhalətə, xurafata, savadsızlığa qarşı dirəniş göstərən, Azərbaycan mətbuat tarixinin bünövrəsini qoyan, taleyi təlatümlər, ziddiyyətlər içərisində keçsə də, söz mülkü yaradan Həsən bəy Zərdabi dövrünün parlaq ziyalısı olub.**

Müdrik kəlmələrin sehrində, sözlərin məna qatında, "sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım" fəlsəfəsində, fikir, düşüncə qanadlarında yol gələn milli mətbuat usanmadan, yorulmadan, qorxmadan haqqın, ədalətin keşiyində dayanır. Millətə, haqqa tapınan milli mətbuat tarixin bütün dönəmlərində, hətta basqı altında olduğu illərdə, senzuranın kəskəs vaxtlarında əxlaqı, ədaləti, rasionallığı, milliliyi, obyektivliyi və sağlam düşüncəni təbliğ edib, xalqı maarifləndirib, bəzən qələm süngüyə çevrilib, bəzən də sözlər, ifadələr qıfıl altına salınıb. Qılıncdan, oxdan, gülllədən qorxmayanlar sözdən çəkiniblər, ehtiyat ediblər. 150 yaşına qədəm qoyan Azərbaycan mətbuatı çətin, keşməkeşli, mübariz və şərəfli yol keçib. Mətbuat tarixinin xronologiyasına nəzər salanda aydın olur ki, milli mətbuat çar Rusiyası, Sovetlər Birliyi dövründə ana dilini, milliliyi və başəriliyi qoruyub saxlaya bilib. 1875-ci il iyulun 22-də dövrün tanınmış ziyalısı Həsən bəy Zərdabi böyük çətinliklərdən sonra Bakıda ana dilində "Əkinçi" qəzetinin nəşr edilməsi üçün icazə ala bilib və qəzetin ilk nömrəsi çapdan çıxıb.

Azərbaycanın görkəmli ziyalısı Həsən bəy Zərdabi 28 iyun 1837-ci ildə Göyçay qəzasının Zərdab kəndində anadan olub. Orta təhsilə Şamaxı şəhərində başlayaraq Tiflisdə tamamlayıb. 1861-ci ildə Moskva Universitetinə daxil olub, dörd il sonra universitetin təbiət-riyaziyyat fakültəsini bitirib. Fakültəni əla qiymətlərlə başa vurduqdan sonra elmi iş üçün onun universitetdə saxlanmasına qərar verilib. Lakin xalqına, millətinə xidmət etmək arzusu onu vətənə qaytarıb. Arxivdəki sənəddə qeyd olunub ki, Həsən bəy Məlikov Moskva Universitetinin rektoru C.Barşev və fizika-riyaziyyat fakültəsinin dekanı A.Davidovun imzası ilə universitetin fizika-riyaziyyat fakültəsini bitirməsi haqqında 1865-ci il iyunun 25-də attestat almışdır. Attestatda qeyd edilirdi: "...Həsən bəy Məlikov Tiflis gimnaziyasını bitirdikdən sonra 1861-ci ilin avqustunda imtahansız universitetin tələbələri siyahısına qəbul edilmiş, əla tərbiyə ilə Zaqafqaziya məmləkətinin hesabına fizika-riyaziyyat fakültəsinin təbii elmlər üzrə şöbənin kursunu əla müvəffəqiyyətlərlə bitirmiş, bu il iyunun 10-da keçirilmiş universitet şurasının qərarı ilə namizədlik dərəcəsində təsdiq edilmişdir". Vətənə qayıtdıqdan sonra bir müddət Qubada məhkəmədə işləyib, daha sonra 1869-cu ildə Bakıya gələrək burada orta məktəbdə təbiətdən dərs deməyə başlayıb. Mütərəqqi fikirlərinə görə dəfələrlə təqib edildiyi müəllimlikdən əl çəkib, qəzet nəşr etmək üçün çar üsul-idarəsinə müraciət edib. Lakin ona bu icazəni verməyib, Həsən bəy isə inadından geri çəkilməyib və sonda istəyinə nail olub. Qəzeti nəşr etməkdə Həsən bəyin əsas məqsədi xalqı elmə, təhsilə səsləmək, onu zülm və cəhalətdən qurtarmaq, qəflət yuxusundan oyatmaq idi. Həsən bəy 1906-cı ildə "Həyat" qəzetində çap etdirdiyi "Rusiyada əvvəlinci türk qəzeti" adlı məqaləsində yazırdı: "Hər kəsi çağırıram - gəlməyir, göstərirəm - görməyir, deyirəm - qanmayır. Belədə qəzet çıxarmaqdan savayı bir qeyri əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzillərinə çata bilsin. Heç olmaz ki, doğru sözlər yerdə qalsın. Hər ildə (bölgədə) on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar. Axırda o bənd ki, suyun qabağını kəsmişdi və suyu axmağa qoymurdu, rəxnə tapar və su mürur ilə bəndi uçurub aparar. Sonra düşmənin düşmənliyi, dostun dostluğu və dost göstərən doğru yolun doğru olmağı aşkar olar". Həsən bəy arzusunu həyata keçirmək üçün Azərbaycanda heç bir şərait yox idi. Özünün dediyi kimi, "qəzetin çıxarılması üçün mətbəə yox, çapçı yox, hürufat yox, pul yox, kitabxana yox, əmələ yox. Bir-iki yüzdən artıq oxuyan da olmayacaq. Dövlət tərəfindən izin almaq da ki, bir böyük bəladır". Lakin Həsən bəy buna da nail oldu.

Bu böyük ziyalının adı çəkildikdə ilk öncə gözlərimiz qarşısında "Əkinçi" qəzetinin naşiri və redaktoru olan böyük şəxsiyyət canlanır. Çünki Azərbaycanda "Əkinçi"yə qədər mətbu orqanı yox idi. "Əkinçi" nin ilk sayı çap olunduğu gün milli mətbuatımızın əsası qoyulub. "Əkinçi" qəzetinin nəşrə başlaması bütün Qafqazda geniş əks-səda doğurub. 1875-1877-ci illər ərzində fəaliyyət göstərmiş qəzetin 56 nömrəsi işıq üzü görüb. "Əkinçi" qəzeti xalqımızın milli oyanışında, həmrəyliyin möhkəmlənməsində, savadsızlığın ləğvində, əkinçiliyin təbliğində böyük rol oynayıb və xalqımızın milli ruhunun formalaşmasında yeni mərhələnin başlanğıcı olub. Əsasən maarifçilik missiyasını yerinə yetirən "Əkinçi" az müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox məşhurlaşıb. Milli oyanışın yeni mərhələsinin təmsilçisi kimi "Əkinçi" qəzetinin başlanğıcını qoyduğu yol neçə-neçə mətbu və ədəbi məktəbin formalaşmasına təkan verib, xalqın maariflənməsinə, milli azadlıq hərəkatının güclənməsinə təsir göstərib. Tarixin müxtəlif ictimai-siyasi mərhələlərində formalaşmış Azərbaycan mətbuatı xalqa, cəmiyyətə, insanlara xidmət borcunu şərəflə yerinə yetirib. Mətbuat tarixində qeyd olunur ki, mütərəqqi ideyaların carçısı olan "Əkinçi" elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edirdi. Qəzetin ən böyük uğurları, ilk növbədə, onun mətbu dilinin xalq dilinə yaxın, sadə və səlis olması idi. Xalqın elmi və mədəni cəhətdən tərəqqisinə çalışan "Əkinçi" qadın azadlığı və qadınların təhsili ideyasını da təbliğ edirdi. "Əkinçi" qəzetində dövrün görkəmli alim və ziyalılarının - Nəcəf bəy Vəzirovun, Əsgər ağa Goraninin, Məhəmmədtağı Əlizadə Şirvaninin, Heydərinin göndərdikləri məktublar, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundzadənin məqalələri dərc olunurdu. Qəzet mövhumata, xurafata və cəhalətə qarşı kəskin çıxışlar edirdi. "Əkinçi" Azərbaycan, Gürcüstan, Dağıstan, Özbəkistan və başqa yerlərdə yayılırdı. Məhz buna görə də qəzetin mütərəqqi ideyaları çar Rusiyasının hakim dairələrini ciddi narahat edirdi. Həsən bəy "Əkinçi"nin 3-cü sayında yazırdı: "Necə ki, lal yavrunun dilini anası bilər, torpağın da qədir-qiymətini dərk edənlər anlayar". Həsən bəy Zərdabinin elm sahəsindəki misilsiz xidmətləri, elmi, təcrübi nailiyyətləri, "Əkinçi" qəzetinin səhifələrindəki tarixi yazıları, eyni zamanda ayrı-ayrı vaxtlarda "Həyat", "İrşad", "Kaspi", "Şərqi rus", "Novoye obozreniya" qəzetlərində dərc etdirdiyi məqalələri, 1899-1903-cü illərdə yazdığı "Torpaq, su və hava", "Həvasi xəmsə", "Bədəni salamat saxlamaq düsturələməli" əsərləri göstərir ki, Həsən bəy doğrudan da fitri istedad sahibi olub. O, "Əkinçi" qəzetinin 1876-cı ildəki sonuncu sayında yazırdı: "Niyə taqətimizi kəsirsiniz, niyə həvəsimizi öldürürsünüz? Niyə macal vermirsiniz dilini, sirrini bildiyimiz torpağı əzizləyək, oxşayaq, əvəzində ondan geyim, yemək, başucalığı alaq? Vallah-billah, torpaq onun dilini bilənindir. Bizim torpaq bizimdir!". 1877-ci il 29 sentyabr tarixinə qədər "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr edilib. Çar Rusiyası qəzetin insanların maariflənməsində, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasındakı rolundan çəkinərək qəzetin nəşrini dayandırıb. Cəhaləti qamçılayan günəşin söndürülməsi Həsən bəyə çox böyük mənəvi zərbə olub. Böyük mütəfəkkir 1907-ci il noyabrın 28-də vəfat edib. Üç dəfə qəbir yeri dəyişdirilən Həsən bəy Zərdabinin nəşi nəhayət, layiq olduğu yerdə - Fəxri Xiyabanda torpağa tapşırılıb. Ölümündən əvvəl yazdığı vəsiyyətnaməndə bildirirdi ki, sizdən xahiş edirəm, mənim üçün təntənəli dəfn mərasimi düzəltməyin. Məni çox sadə dəfn edin. Dəfn üçün xərclənməsi lazım gələn vəsaiti müsəlmanlar arasında savad yayan cəmiyyətə verin. Bu mənim başı bəlalar çəkmiş xalqım üçün daha faydalı olardı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2012-ci il iyunun 4-də milli mətbuatın banisi, görkəmli ictimai xadim, böyük maarifpərvər, tanınmış publisist, pedaqoq və təbiətşünas alim Həsən bəy Səlim bəy oğlu Zərdabinin (Məlikovun) yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. Həmin Sərəncamda qeyd edilib: "Azərbaycanda sosial-mədəni həyatın on doqquzuncu əsrin ikinci yarısından etibarən sürətli canlanmasında və ictimai fikrin maarifçi-demokratik ideyalarla zənginləşməsində Həsən bəy Zərdabinin müstəsna xidmətləri vardır. Zərdabi yaradıcısı, təşkilatçısı və redaktoru olduğu "Əkinçi" qəzetini doğma ana dilində nəşr etdirməklə milli mətbuatın bünövrəsini qoymuş, dövrünün ziyalılarını bu qəzet ətrafında birləşdirərək taleyüklü mühüm vəzifələrin uğurla həyata keçirilməsində misilsiz rol oynamışdır".

**Salman ALIOĞLU,**
**"Respublika"**